

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 104 (23.746)

*10 iyun 2021-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Milli Qurtuluşdan sosial-iqtisadi inkişaf və tərəqqiyə

## *Duzdağda yeni şaxta istifadəyə verilib*



1993-cü il iyunun 9-da ümummilli liderimiz Heydər Əliyev xalqın çağırışına səs verərək Naxçıvandan Bakıya qayıtmış, müstəqilliyimizi və dövlətçiliyimizi xilas etmişdir. Həmin gün ölkəmizin taleyində dönüş anı olmuş və böyük Qurtuluşa doğru  mühüm addım atılmışdır. O addım suverenliyin, sabitliyin və sosial-iqtisadi inkişafın təməli olmaqla, Azərbaycanın gələcək inkişaf perspektivlərini müəyyənləşdirmiş, xalqımızı nicat yoluna çıxarmışdır.

İyunun 9-da – Milli Qurtuluş Günü ərəfəsində Duzdağda yeni şaxta istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə çıxış edərək demişdir: Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, ***"Azərbaycanın təbii sərvətləri təkcə neft və qazdan ibarət deyildir. Biz bir çox başqa yeraltı sərvətlərə də malikik... Bu sərvətlərdən də səmərəli istifadə etməliyik".*** Bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında ulu öndərin müəllifi olduğu sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi kimi təbii sərvətlərimizdən xalqımızın rifahı və ölkəmizin inkişafı naminə səmərəli istifadə olunur. Duzdağda yeni şaxtanın istifadəyə verilməsi də bu istiqamətdə görülən işlərin davamıdır.



Ali Məclisin Sədri demişdir: Duzdağ mədənçiliyinin qədim tarixi vardır. Hələ Eneolit dövründən başlayaraq əcdadlarımız Naxçıvanda duz çıxarılması ilə məşğul olmuş, eradan əvvəl IV minillikdə bu proses daha da genişlənmiş, duzdan tədavül vasitəsi kimi istifadə olunmuşdur. Bəzi mənbələrdə isə bu ərazidə duz çıxarılması Nuh Peyğəmbərlə əlaqələndirilir. Duz mədənçiliyinin inkişafı Duzdağ ətrafında məskunlaşmaya, icmalararası və şəhərlərarası əlaqələrin qurulmasına təkan vermiş, ticarət və sənətkarlıq inkişaf etmiş, Naxçıvanda şəhər mədəniyyəti formalaşmışdır. Dünya səyyah və coğrafiyaşünaslarının əsərlərində də Naxçıvanda duz çıxarılmasından geniş bəhs olunmuşdur. Tarixçi və coğrafiyaşünas Zəkəriyyə əl-Qəzvininin "Ölkələrin abidələri və məbudların xəbərləri" əsərində XII yüzillikdə Naxçıvanda duz çıxarılması barədə məlumat verilir. 1833-cü ildə rus tədqiqatçısı Qriqoryev tərəfindən tərtib edilmiş "Naxçıvan əyalətinin statistik təsviri" kitabında isə Naxçıvan duzu barədə yazılır: "Bu duz keyfiyyətinə görə bütün Zaqafqaziyada məşhurdur. Qarabağdan, Yelizavetpol dairəsindən, Şərurdan və Naxçıvanın bütün kəndlərindən bura karvanlar gəlir. Aprel ayından oktyabr ayınadək duz istehsalının əhatə dairəsi daha da genişlənir". Digər bir tarixi sənəddə – Qafqaz Dağ İdarəsinin 1889-1907-ci illər üzrə hesabatında isə Naxçıvan mədənində ildə 3 min tona yaxın duz çıxarıldığı qeyd olunur.

Ali Məclisin Sədri demişdir: XX əsr Naxçıvan duz mədənçiliyi tarixində yeni mərhələdir. 1917-ci ildə Duzdağda əsaslı istismar işlərinə, 1927-ci ildə isə ilk dəfə sənaye üsulu ilə duz çıxarılmasına başlanılmışdır. Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə birinci rəhbərliyi dövründə muxtar respublikada dağ-mədən sənayesinin inkişafına və duz istehsalının artırılmasına nail olunmuş, duz mədəninin maddi-texniki bazası gücləndirilmiş, nəticədə, ötən əsrin 80-ci illərində duz istehsalının həcmi 1940-cı illə müqayisədə 2 dəfə artmışdır. Müstəqillik illərində Naxçıvan duzunun tarixi şöhrətinin özünə qaytarılması və duz istehsalının genişləndirilməsi ilə yanaşı, Duzdağ mədəniyyəti də öyrənilmiş, arxeoloji tədqiqatlar aparılmış, beynəlxalq elmi simpozium və konfranslar keçirilmişdir. Bu gün milli sərvətimiz olan Duzdağ tarixi-mədəni dəyəri, iqtisadi əhəmiyyəti, şəfaverici xüsusiyyəti və turizm cəlbediciliyi ilə dünyaya təqdim olunur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***"Naxçıvanın rəmzlərindən biri də təbii ehtiyatları 90 milyon ton təşkil edən Duzdağdır. Bu dağ ölkəmizdə təkcə saf və təmiz duzu ilə deyil, həm də şəfaverici xüsusiyyətlərinə görə tanınmışdır".***

Qeyd olunmuşdur ki, muxtar respublikada duzun təhlükəsiz və iqtisadi cəhətdən daha rentabelli üsullarla çıxarılması, daşınması, emalı və ixracı diqqətdə saxlanılır. 2018-ci ildən etibarən Duzdağda axtarış və kəşfiyyat işləri aparılmış, duz ehtiyatı 15 milyon ton olan şaxta qazılmış, ərazidə yeni istehsal kompleksinin tikintisinə başlanmış, duz mədənləri xüsusi qorunan ərazilərin kateqoriyasına aid edilərək xəritəsi hazırlanmışdır. Yeni duz şaxtasının və istehsal kompleksinin muxtar respublika üçün böyük iqtisadi əhəmiyyəti vardır. Uzun illər bu şaxtadan istifadə olunacaq, Naxçıvan duzunun istehsal həcmi artacaq, daxili tələbatın ödənilməsi ilə yanaşı, həm də xarici bazarlara çıxış imkanı yaranacaqdır.

"Duzdağda yeni şaxtanın istifadəyə verilməsi işin bir tərəfidir. Əsas məsələ mövcud duz ehtiyatından səmərəli istifadə etməkdir", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, İqtisadiyyat Nazirliyi bu məsələyə diqqəti artırmalı, istismar qaydalarına əməl olunmalı, mədən işlərində və istehsal prosesində itki minimum həddə saxlanılmalıdır. Vurğulanmışdır ki, muxtar respublikada il ərzində 6-8 min ton duz istehsal olunur. Yeni şaxta və istehsal kompleksi fəaliyyətə başladıqdan sonra isə birnövbəli iş rejimində müəssisənin illik istehsal gücü 15 min ton olacaqdır. Bu da daxili tələbatı ödəməklə yanaşı, həm də böyük ixrac potensialı deməkdir. İqtisadiyyat Nazirliyi Naxçıvan duzunun ixrac imkanlarını araşdırmalı, xarici bazarlar öyrənilməli, məhsulun çeşidi və həcmi artırılmalıdır.

Ali Məclisin Sədri demişdir: Mədəndən götürülmüş daşduzun keyfiyyət göstəriciləri yüksəkdir. Analiz nəticəsində natrium-xloridin miqdarının 97 faiz olduğu müəyyən edilmişdir. Bütün bunlara baxmayaraq, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti istehsal prosesində keyfiyyətə və texniki şərtlərə xüsusi diqqət yetirməli, standartların tələbi qorunmalıdır. Duz şaxtasında təhlükəsiz iş şəraitinin yaradılması qarşıda duran əsas vəzifədir. Ona görə də mədən işlərinə yalnız xüsusi ixtisas hazırlığı olan mütəxəssislər cəlb olunmalı, Fövqəladə Hallar Nazirliyi təhlükəsizlik qaydalarını və texnoloji rejimi mütəmadi nəzarətdə saxlamalıdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi şaxtanın dağmədən-texniki, hidrogeoloji və ekoloji vəziyyətini davamlı yoxlamalı, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yeni istehsal kompleksinin tikintisini qısa müddətdə başa çatdırmalıdır.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında hər kəsə uğurlar arzulamış, Qurtuluş bayramı ərəfəsində yeni duz şaxtasının istifadəyə verilməsi münasibətilə kollektivi və tədbir iştirakçılarını, eləcə də bütün muxtar respublika əhalisini təbrik etmiş, bu işdə əməyi olanlara təşəkkürünü bildirmişdir.

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev çıxış edərək demişdir: 2017-ci ilin oktyabr ayında "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətinin 1 nömrəli şaxtasında aparılan araşdırma zamanı yeraltı avadanlıqların uzun müddət istismar olunduğu, mağaradan istifadənin iqtisadi cəhətdən səmərəli olmadığı və şaxtanın istismar müddətinin başa çatdığı nəzərə alınaraq fəaliyyəti dayandırılmışdır. Qazma işləri yerüstü istismar üsulu ilə həyata keçirilmişdir. 2018-ci ildə Duzdağda kəşfiyyat quyuları qazılmış, 133 metr dərinlikdəki 1 saylı quyuda 11,6 metr qalınlığında, 101 metr dərinlikdəki 6,5 metr qalınlığında daşduz layı kəsilmiş, 2019-cu ilin dekabr ayında isə yeni şaxtanın inşasına başlanılmışdır. Texniki təhlükəsizlik qaydalarına tam cavab verən yeni şaxtaya ağır texnikalar daxil olaraq istənilən qədər xammalı daşıya biləcək ki, bu həm vaxt itkisinin qarşısını alacaq, həm də mədən işçilərinin əməyini xeyli yüngülləşdirəcək. Ali Məclis Sədrinin tapşırığına uyğun olaraq duzun istehsal və satış həcmini artırmaq məqsədilə yeni müəssisə də qurulur. Hazırda tikinti-quraşdırma işləri yekunlaşmaq üzrədir. Naxçıvan duzunun ölkəmizin digər regionlarında da satışını təmin etmək üçün Bərdə şəhərində baza yaradılmışdır. Yeni müəssisə istifadəyə verildikdən sonra Naxçıvan duzu ən müasir vasitələrlə daha keyfiyyətli istehsal olunaraq dünya bazarına çıxarılacaq.

Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri Mayis Əliyev çıxış edərək demişdir ki, müstəqillik illərində Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, onun Geoloji Axtarış və Kəşfiyyat İdarəsinin maddi-texniki



imkanları tam yenilənmişdir. İdarə üçün Culfa şəhərində ən müasir tələblərə cavab verən Geoloji Baza qurulmuş, müasir avadanlıqlarla təchiz edilmiş laboratoriya istifadəyə verilmişdir. Yaradılan şərait isə Duzdağ daşduz yatağında geoloji kəşfiyyat işlərinin aparılmasına əlverişli imkan yaratmışdır. Geoloji Axtarış və Kəşfiyyat İdarəsi tərəfindən Duzdağ yatağının Naxçıvan sahəsində yeni istismar şaxtasının yerinin müəyyənləşdirilməsi məqsədilə geoloji kəşfiyyat işləri aparılmış, 3 quyu layihələndirilmişdir. Qazılmış 1 saylı axtarış quyusuna istinad edilərək Naxçıvan sahəsində yeni şaxtanın yeri müəyyən olunmuşdur. Yeni şaxtanın qazılması zamanı yatağın geoloji vəziyyəti nəzərə alınmaqla əvvəlki illərdə aparılmış axtarış, kəşfiyyat işlərinin nəticələri hərtərəfli araşdırılmış, yenidən yoxlanılmış, yatağın geoloji quruluşu öyrənilmişdir. Mayis Əliyev bundan sonra da muxtar respublikanın yeraltı və yerüstü təbii sərvətlərinin qorunması və səmərəli

*Ardı 2-ci səhifədə*



istifadəsi ilə bağlı vəzifələrin layiqincə həyata keçiriləcəyini bildirmişdir.

Duzdağ duz mədənlərinin topoqrafik xəritəsinə və sxematik planına baxış zamanı Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin rəisi Müslüm Cabbarzadə məlumat vermişdir ki, yeni şaxtanın açılması üçün 227 hektar torpaq sahəsi ayrılaraq duz mədənlərinin ümumi ərazisi 994 hektara çatdırılmışdır. İstismar olunmuş və yeni şaxtanın yerləşdiyi bu ərazi tarixi-mədəni, iqtisadi, turizm-rekreasiya və təbii müalicə əhəmiyyətli ərazi kimi mühafizə olunması məqsədilə xüsusi qorunan torpaqlar kateqoriyasına daxil edilmişdir. Duzdağda qazılmış axtarış quyularının koordinatları dəqiqləşdirilərək topoqrafik plana salınmışdır. Şaxtaların sxematik və əhatə etdiyi ərazilərin topoqrafik planları, Naxçıvan-Duzdağ Fizioterapiya Mərkəzi turist marşrutu xəritəsi hazırlanmış, xəritə və planlar toplu şəklində nəşr olunmuş, həmçinin xidmətin elektron məlumat bazasına əlavə edilmişdir. Bu xəritələrdən təkcə informasiya almaq məqsədilə deyil, həm də ərazi ilə bağlı bir çox məsələlərin həllində istifadə etmək mümkündür.

Ali Məclisin Sədri Duzdağ duz mədəni tunelinin tikintisi zamanı çəkilən fotoşəkillərə və duz mədənləri ərazisindəki şaxtaların sxematik planına da baxmışdır.

Sonra şaxtanın qazılmasında əməyi olanlara hədiyyələr təqdim olunmuşdur.

Şaxtaçı Ceyhun Hüseynov kollektiv adından minnətdarlıq edərək demişdir: “Bu gün biz şaxtaçılar üçün çox əlamətdar bir gündür. Belə bir şaxtanın açılması Naxçıvan duzunun şöhrətini qaytarmaqla yanaşı, gələcək nəsillərin də gəlir mənbəyinə çevriləcəkdir. 20 ildir, duz mədənində çalışıram. Köhnə duz mədəni bağlandıqdan sonra yenidən şaxtada çalışacağımı xəyal edirdim. Yeni şaxta muxtar respublikamızın tarixində qalacaq ən önəmli hadisə olmaqla yanaşı, gələcəkdə burada ixtisaslı mühəndislərin, şaxtaçıların yetişməsinə şərait yaradacaqdır. Bu tarixə şahidlik etmək bizim üçün xoşbəxtlikdir. Yaradılan şəraitdən səmərəli istifadə edəcək, muxtar respublikanın inkişafı naminə var-qüvvəmizlə çalışacağıq”.



Ali Məclisin Sədri şaxtada yaradılan şəraitlə maraqlanmış, muxtar respublikada satışı həyata keçirilən duz məhsullarına, eləcə də şaxtanın istismar planına baxmışdır.

Yeni şaxtaya baxış zamanı məlumat verilmişdir ki, Duzdağdakı 133 metr dərinlikdəki 1 saylı kəşfiyyat quyusunda 11,6 metr qalınlığında, 101 metr dərinlikdəki 2 saylı quyuda isə 6,5 metr qalınlığında daşduz layı kəsilmişdir. Ərazidə tikintisi davam etdirilən yeni duz istehsalı müəssisəsindən şaxtayadək 3 kilometr uzunluğunda yol, 3,6 kilometr uzunluğunda elektrik xətti çəkilmiş, işıqlandırma sistemi qurulmuşdur. Tunelin döşəmə və divarları monolit betonla möhkəmləndirilmiş, yük avtomobillərinin hərəkəti təmin edilmiş, ehtimal olunan qrunt sularının qarşısını almaq üçün drenaj çəkilmişdir. Yeni şaxtadan götürülmüş daşduzun analizi nəticəsində natrium-xloridin miqdarının 97 faiz təşkil etdiyi müəyyən edilmişdir.

Sonra Ali Məclisin Sədri idarəetmə qurğusunu işə salmış, şaxtada ilk partlayış olmuş və duzun çıxarılmasına başlanılmışdır.

Ali Məclisin Sədri muxtar respublikada tunel-qazıntı işlərinin yerli şirkətlər tərəfindən uğurla həyata keçirildiyini bildirmiş, təhlükəsizlik qaydalarına əməl olunması və işçilər üçün kursların keçirilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## 15 İyun – Milli Qurtuluş Günü ilə əlaqədar olaraq gənc partiya üzvləri ilə görüş təşkil edilib



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Dövlət Universiteti ərazi ilk partiya təşkilatının birgə təkilatçılığı ilə 15 İyun – Milli Qurtuluş Günü münasibətilə Naxçıvan Dövlət Universitetində gənc partiya üzvləri ilə görüş keçirilib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyinin sədri Azad Cabbarov muxtar respublikada gənclərə göstərilən yüksək dövlət qayğısından danışıb. Bildirib ki, muxtar respublikada gənclərin sağlam, vətənpərvərlik ruhunda böyüməsi, yüksək səviyyədə təhsil alması, cəmiyyətin müxtəlif sahələrində fəal iştirakının təmin edilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Nazir qeyd edib ki, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı üzvlərinin 40,5 faizini gənclər təşkil edir. Partiyanın üzvü olan gənclərdən 12 min 203-ü qadındır. Gənc üzvlərdən 13 min 731-i ali, 1840-ı orta ixtisas, 7 min 507-si orta təhsillidir. Bununla yanaşı, üzvlərdən 12 nəfəri fəlsəfə doktoru, 3 min 72-si isə tələbədir. Azad Cabbarov bildirib ki, Yeni Azərbaycan Partiyasının üzvü olan gənclər təhsil, səhiyyə, elm, mədəniyyət və incəsənət, idarəetmə, sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat, rabitə və digər xidmət sahələrində çalışırlar.

Universitetin rektoru, dosent Elbrus İsayev qeyd edib ki, Azərbaycan xalqının taleyində böyük əhəmiyyət daşıyan, tariximizə qızıl hərflərlə yazılmış 15 İyun – Milli Qurtuluş Günü böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malikdir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan ulu öndər olub. Təhsilə göstərilən yüksək diqqət və qayğıdan danışan rektor diqqətə çatdırıb ki, universitetdə yaradılan müasir tədris şəraiti gənclərin savadlı kadr kimi yetişməsində mühüm rola malikdir.

Yeni Azərbaycan Partiyası Naxçıvan Dövlət Universiteti ərazi ilk partiya təşkilatının sədri Arzu Abdullayev ulu öndərin tarixi missiyasından və Azərbaycan gəncliyinə verdiyi misilsiz xidmətlərdən danışıb.

Universitetdə təhsil alan gənc partiya üzvü, ingilis dili üzrə I kurs magistrant Lalə Rzayeva gənclər üçün yaradılan geniş imkanlardan danışıb.

Sonra ali təhsil ocağında yeni yaradılan estrada orkestrinin konsert proqramı təqdim edilib. Universitetdə təhsil alan Yeni Azərbaycan Partiyasına yeni üzv olan tələbələrə üzvlük vəsiqələri təqdim olunub. Universitetin ictimai və təhsil işlərində fərqlənən gənc partiya üzvləri Gənclər və İdman Nazirliyi tərəfindən diplom və hədiyyələrlə təltif ediliblər.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Ailə təsərrüfatları ən dayanıqlı biznes formasıdır

***Bu gün inkişaf etmiş ölkələrdə özəl sektorun əsası ailə təsərrüfatları və belə təsərrüfatların özəyini təşkil edən ailə biznesi üzərində qurulub. Ailə təsərrüfatlarının yaradılması və inkişafı yeni istehsal müəssisəsi yaratmadan məşğulluq problemlərini həll etdiyindən və əhali gəlirlərinin artmasına müsbət təsir göstərdiyindən son illərdə muxtar respublikamızda da ailə təsərrüfatlarının inkişafı istiqamətində sistemli tədbirlər həyata keçirilir. Belə təsərrüfatlara dəstək məqsədilə güzəştli kreditlər ayrılır, “Ailə təsərrüfatı məhsulları” festivalları və yarmarkaları keçirilir, müvafiq dövlət qurumları tərəfindən ailələrdə istehsal olunan məhsulların qablaşdırılmasına, satışına köməkliklər edilir. Bir sözlə, son bir neçə il ərzində muxtar respublikada ailə təsərrüfatı institutunun formalaşması üçün lazımi şərait yaradılıb.***



Ailə təsərrüfatları iqtisadi məşğuliyyət sahəsi kimi bir çox müsbət tərəfləri ilə seçilir. Məlum pandemiya isə onu göstərdi ki, bu cür fors-major vəziyyətlərdə ailə təsərrüfatları və ya ailə biznesləri digərləri ilə müqayisədə daha dayanıqlıdır. Bəs bu, nəyə əsaslanır?

Hər şeydən əvvəl, bunu bildirməliyik ki, ailə təsərrüfatı birliyi (forması) sırf qohumluq dərəcəsi bir-birinə yaxın olan ailə üzvlərinin birgə fəaliyyət göstərdiyi təsərrüfat formasıdır. Yəni burada məhsulun yaranmasından, qablaşdırılmasından tutmuş istehlakçıya çatdırılmasınadək olan bütün proseslərin hamısında ailə üzvləri iştirak edir. Ancaq bu iştirak həm də ailə biznesi fəaliyyətidir. Yəni ailə üzvlərinin birgə fəaliyyət göstərdiyi biznes formasıdır. Lakin ailə təsərrüfatı bir müddət sonra öz istehsalını artırıb sahibkarlıq subyektinə çevrilirsə, deməli, istehsal həcminə görə, həm də daha çox işçinin işləməsini təmin edir və bu halda sahibkar, təbii ki, özünə qohumluq dərəcəsi aid olmayan işçiləri də işə cəlb edir. Bu vəziyyətdə həmin subyekti biz “ailə təsərrüfatı” adlandıra bilməsək də, “ailə biznesi” adlandıra bilərik. Çünki həmin subyektin rəhbərliyində və şirkətin əsas idarəçiliyində yenə də ailə üzvləri dayanır və qazanılan gəlir də elə onlar arasında bölüşdürülür. Buna görə də istənilən ailə təsərrüfatına ailə biznesi kimi baxmaq olar, lakin hər ailə biznesinə ailə təsərrüfatı kimi baxmaq mümkün deyil. Buradan da o nəticəyə gəlmək olar ki, “ailə təsərrüfatı” kiçik formatda qəbul olunan anlayışdır və burada müdiriyyət də, işçilər də, bir ailənin üzvləridir. Ailə təsərrüfatlarının böhran vəziyyətlərində dayanıqlı olmasını şərtləndirən səbəblər isə buradakı idarəçilik və işə yanaşma tərzinə əsaslanır.

Qeyd edək ki, ailə təsərrüfatlarında hazırlanan məhsullar hər zaman özünəməxsusluğu ilə seçilir.



Çünki böyük müəssisələrdə işləyən yüzlərlə işçidən fərqli olaraq ailə üzvləri istehsal etdiyi məhsulun tərkibinə, keyfiyyətinə daha ehtiyatla yanaşır, məhsulun “nazını” daha çox çəkir, ona əlavə dəyər qatır. Ən əsası, ailə üzvü bilir ki, ailənin istehsal etdiyi məhsul birbaşa onun və ailəsinin adı ilə bağlıdır. Böyük müəssisələrdə isə işçilərin belə bir “dərdi” olmur, çünki istehsal olunan məhsulun keyfiyyəti birbaşa şirkətin adına yazılır. Digər tərəfdən ailə təsərrüfatlarında üzvlər istehsal etdikləri məhsulun keyfiyyəti ilə yanaşı, qənaətə də böyük diqqət göstərirlər. Çünki hər kəs bilir ki, qənaət təkcə məsələyə iqtisadi yanaşmada deyil, həm də ümumi işə canıyanarlıqdadır. Böyük müəssisələrdə isə belə bir yanaşmanı müşahidə etmək çətindir. Bundan əlavə, ailəvi sahibkarlıq fəaliyyəti ailə üzvlərinin hər birinə öz təşəbbüskarlığını, zəhmət və bacarığını nümayiş etdirmək üçün geniş imkanlar açır. Bu isə ailə üzvlərinin hər birinin daha çox hansı istiqamətdə bacarıqlı olduğunu ortaya çıxarır. Nəticədə, ailə üzvlərinin iş bölgüsündə təkcə təsərrüfat sahibi yox, digər üzvlər də söz sahibi olurlar.

Maraqlı məqamlardan biri də odur ki, bu cür ailəvi çalışmalarda ümumi qazanc bir büdcədə toplanır və hər kəs arasında bərabər bölüşdürülür. Əgər təsərrüfat maddi zərərə məruz qalarsa və qazanc azalarsa, bunu bütün üzvlər anlayışla qəbul edirlər. Böyük müəssisələrdə isə sahibkar rastlaşdığı çətinliklərdən dolayı işçilərə maddi ödənişlər etməkdən azad olunmur. Həmçinin böhran dövrlərində ailə üzvlərinin hər biri mövcud vəziyyəti qiymətləndirməyi bacarır, hər kəs ümumi qərar qəbulunda iştirak edir, görüləcək işlər üçün daha tədbirli davranılır. Nəticədə, təsərrüfatın rentabelliyi qorunur, istehsal davamlılığı qısa müddətdə təmin olunur, partnyorlar qarşısında böyük borclar yaranmır. Bütün bu tərəflərinə görə, ailə təsərrüfatları və ya ailə üzvlərinin daha çox təşkil etdiyi kiçik sahibkarlıq subyektləri böhran vəziyyətlərindən minimum zərərlə qurtarmış olurlar. Yeri gəlmişkən, belə vəziyyətlərdə əhali sayının daha çox ailə təsərrüfatı birliklərində çalışdığı ölkələrdə dövlətin də üzərinə o qədər ağır yük düşmür. Necə deyərlər, hər bir ailə təsərrüfatı sahibi ailə üzvlərinin tələbatlarını ödəmək üçün digərlərindən daha üstün imkana malik olur. Bu, dövlət üçün də sərfəli sayılır, çünki əhalinin sosial vəziyyətini sabit saxlamaq üçün az vəsait xərcləyir, əvəzində maliyyə imkanlarını digər istiqamətlərə yönəldir. Bütün bunları yekunlaşdıraraq belə bir nəticəyə gələ bilərik ki, ailə təsərrüfatları ən dayanıqlı biznes formasıdır.

**Səbuhi HƏSƏNOV**

# Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi
## Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 10 iyun-12 iyul 2021-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzinin internet portalında *(www.dim.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər test imtahanında iştirak üçün 70 manat məbləği "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət İmtahan Mərkəzinin "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək Dövlət İmtahan Mərkəzinə təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət İmtahan Mərkəzinə gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar Dövlət İmtahan Mərkəzinin (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya *dim@nmr.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

| Vəzifə kodu | Təhsil müəssisəsi | İxtisas | Vakant yerlərin sayı | Vakant saatların miqdarı | Qeyd |
|---|---|---|---|---|---|
| | **Naxçıvan şəhəri üzrə:** | | | | |
| 6910322 | 3 nömrəli tam orta məktəb | Alman dili | 1 | 12 | * |
| 6910309 | 3 nömrəli tam orta məktəb | Fizika | 1 | 12 | * |
| 6910314 | 3 nömrəli tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | * |
| 6910312 | 3 nömrəli tam orta məktəb | Tarix | 1 | 12 | * |
| 6910914 | 9 nömrəli tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6911414 | 14 nömrəli tam orta məktəb | Fiziki tərbiyə | 2 | 24 | |
| | **Cəmi:** | **7 yer** | | | |
| | **Şərur rayonu üzrə:** | | | | |
| 6900420 | Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey | İngilis dili | 1 | 12 | |
| 6900408 | Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey | Riyaziyyat | 1 | 12 | |
| 6900421 | Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey | Rus dili | 1 | 13 | |
| 6920918 | Axura kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6920920 | Axura kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6920910 | Axura kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6920313 | Alışar kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6920309 | Alışar kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6920414 | Aralıq kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6920408 | Aralıq kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 15 | |
| 6920520 | Arbatan kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6920707 | Aşağı Yaycı kənd tam orta məktəbi | Azərbaycan dili | 1 | 12 | |
| 6925713 | Aşağı Yaycı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6921109 | Çəmənli kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6921609 | Dərəkənd kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6921811 | Diyadin kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6921813 | Diyadin kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6921812 | Diyadin kənd tam orta məktəbi | Tarix | 1 | 18 | |
| 6922108 | Ələkli kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 15 | |
| 6922210 | Ərəbyengicə kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6922309 | Gümüşlü kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6922310 | Gümüşlü kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6922407 | Havuş kənd tam orta məktəbi | Azərbaycan dili | 1 | 12 | ** |
| 6922522 | Həmzəli kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6922509 | Həmzəli kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6922510 | Həmzəli kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6924922 | Xanlıqlar kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6925022 | Xələc kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6925007 | Xələc kənd tam orta məktəbi | Azərbaycan dili | 1 | 12 | |
| 6925013 | Xələc kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6925019 | Xələc kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6925012 | Xələc kənd tam orta məktəbi | Tarix | 1 | 12 | |
| 6922618 | İbadulla kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6922909 | Kürçülü kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6922910 | Kürçülü kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6923713 | Qaraburc kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6923709 | Qaraburc kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6923718 | Qaraburc kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6924013 | Qorçulu kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6924009 | Qorçulu kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6923213 | Maxta kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6923309 | Muğancıq-Mehrab kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6923607 | Püsyan kənd tam orta məktəbi | Azərbaycan dili | 1 | 18 | |
| 6923616 | Püsyan kənd tam orta məktəbi | Musiqi | 1 | 12 | |
| 6924413 | Şəhriyar kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6924420 | Şəhriyar kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6924713 | Tumaslı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6924710 | Tumaslı kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6924822 | Vərməziyar kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6924810 | Vərməziyar kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6925209 | Yengicə kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6925221 | Yengicə kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6925313 | Yeni Havuş kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6925309 | Yeni Havuş kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6925417 | Yuxarı Daşarx kənd tam orta məktəbi | Təsviri incəsənət | 1 | 12 | |
| | **Cəmi:** | **55 yer** | | | |
| | **Babək rayonu üzrə:** | | | | |
| 6932314 | Nehrəm qəsəbə 3 nömrəli tam orta məktəb | Fiziki tərbiyə | 1 | 12 | |
| 6930813 | Didivar kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6931022 | Göynük kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | ** |
| 6931112 | Gülşənabad kənd ümumi orta məktəbi | Tarix | 1 | 12 | ** |
| 6931222 | Güznüt kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6931622 | Məmmədrza Dizə kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6931613 | Məmmədrza Dizə kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6931822 | Naxışnərgiz kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6931813 | Naxışnərgiz kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6932022 | Nəhəcir kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | ** |
| 6932418 | Payız kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | ** |
| 6932514 | Qahab kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6932521 | Qahab kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6933022 | Uzunoba kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6933421 | Yarımca kənd tam orta məktəbi | Rus dili | 1 | 14 | |
| 6933512 | Yuxarı Buzqov kənd tam orta məktəbi | Tarix | 1 | 12 | ** |
| 6933508 | Yuxarı Buzqov kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 15 | ** |
| | **Cəmi:** | **17 yer** | | | |
| | **Ordubad rayonu üzrə:** | | | | |
| 6940120 | Ordubad şəhər 1 №-li tam orta məktəb | İngilis dili | 2 | 30 | |
| 6940407 | Aşağı Əylis kənd tam orta məktəbi | Azərbaycan dili | 1 | 18 | |
| 6940409 | Aşağı Əylis kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6940408 | Aşağı Əylis kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 15 | |
| 6940707 | Baş Dizə kənd tam orta məktəbi | Azərbaycan dili | 1 | 15 | ** |
| 6940807 | Behrud kənd tam orta məktəbi | Azərbaycan dili | 1 | 12 | ** |
| 6941007 | Bist kənd tam orta məktəbi | Azərbaycan dili | 1 | 15 | ** |
| 6941013 | Bist kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6941020 | Bist kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6941008 | Bist kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 15 | ** |
| 6941122 | Çənnəb kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | ** |
| 6941115 | Çənnəb kənd tam orta məktəbi | Texnologiya | 1 | 12 | ** |
| 6941213 | Dəstə kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6941220 | Dəstə kənd tam orta məktəbi | İngilis dili | 1 | 18 | |
| 6941212 | Dəstə kənd tam orta məktəbi | Tarix | 1 | 12 | |
| 6941610 | Düylün kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6941810 | Əndəmic kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6941818 | Əndəmic kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6941910 | Gənzə kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6941918 | Gənzə kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6943407 | Xanağa kənd tam orta məktəbi | Azərbaycan dili | 1 | 15 | |
| 6943519 | Xurs kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | ** |
| 6943520 | Xurs kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6942113 | Kələki kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6942110 | Kələki kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6942212 | Kotam kənd tam orta məktəbi | Tarix | 1 | 18 | |
| 6942361 | Nəsirvaz kənd tam orta məktəbi | Biologiya-kimya | 1 | 15 | ** |
| 6942422 | Nürgüt kənd tam orta məktəbi | Alman dili | 1 | 22 | ** |
| 6942413 | Nürgüt kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6942409 | Nürgüt kənd tam orta məktəbi | Fizika | 1 | 12 | ** |
| 6942408 | Nürgüt kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 18 | ** |
| 6942509 | Nüsnüs kənd tam orta məktəbi | Fizika | 1 | 13 | |
| 6942610 | Parağa kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6942722 | Pəzməri kənd ümumi orta məktəbi | Alman dili | 1 | 12 | ** |
| 6942910 | Tivi kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6942918 | Tivi kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | ** |
| 6943018 | Unus kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 16 | ** |
| 6943010 | Unus kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6943008 | Unus kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 15 | ** |
| 6943111 | Üstüpü kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | ** |
| 6943220 | Vələver kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6943210 | Vələver kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6943212 | Vələver kənd tam orta məktəbi | Tarix | 1 | 18 | |
| 6943311 | Vənənd kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6943320 | Vənənd kənd tam orta məktəbi | İngilis dili | 1 | 15 | |
| 6943618 | Yuxarı Əylis kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 16 | |
| 6943610 | Yuxarı Əylis kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| | **Cəmi:** | **48 yer** | | | |
| | **Culfa rayonu üzrə:** | | | | |
| 6950620 | Camaldın kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6950662 | Camaldın kənd tam orta məktəbi | Riyaziyyat-informatika | 1 | 12 | |
| 6950762 | Dizə kənd tam orta məktəbi | Riyaziyyat-informatika | 1 | 12 | |
| 6950712 | Dizə kənd tam orta məktəbi | Tarix | 1 | 18 | |
| 6950812 | Əbrəqunus kənd tam orta məktəbi | Tarix | 1 | 12 | ** |
| 6950922 | Əlincə kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | ** |
| 6951020 | Ərəfsə kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6951509 | Kırna kənd tam orta məktəbi | Fizika | 1 | 12 | ** |
| 6951710 | Milax kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6951912 | Qızılca kənd tam orta məktəbi | Tarix | 1 | 12 | ** |
| 6952013 | Saltaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | ** |
| 6952120 | Şurud kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | ** |
| 6952221 | Teyvaz kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | ** |
| 6952511 | Yaycı kənd 1 №-li tam orta məktəb | Biologiya | 1 | 12 | |
| 6952509 | Yaycı kənd 1 №-li tam orta məktəb | Fizika | 1 | 12 | |
| 6952510 | Yaycı kənd 1 №-li tam orta məktəb | Kimya | 1 | 12 | |
| 6952562 | Yaycı kənd 1 №-li tam orta məktəb | Riyaziyyat-informatika | 1 | 12 | |
| 6952512 | Yaycı kənd 1 №-li tam orta məktəb | Tarix | 1 | 12 | |
| 6952621 | Yaycı kənd 2 №-li tam orta məktəb | Rus dili | 1 | 12 | |
| | **Cəmi:** | **19 yer** | | | |
| | **Kəngərli rayonu üzrə:** | | | | |
| 6970114 | Qıvraq qəsəbə tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6970222 | Böyükdüz kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6971018 | Xok kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 2 | 28 | |
| 6971016 | Xok kənd tam orta məktəbi | Musiqi | 1 | 12 | |
| 6971008 | Xok kənd tam orta məktəbi | Riyaziyyat | 1 | 15 | |
| 6970411 | Qabıllı kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6970418 | Qabıllı kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 6970609 | Qarabağlar kənd 2 №-li tam orta məktəb | Fizika | 1 | 12 | |
| 6970709 | Şahtaxtı kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6971109 | Yeni Kərki kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6971218 | Yurdçu kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| Cəmi: | | 12 yer | | | |
| Şahbuz rayonu üzrə: | | | | | |
| 6960709 | Badamlı qəsəbə tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6960422 | Ağbulaq kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6960413 | Ağbulaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6960418 | Ağbulaq kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6960419 | Ağbulaq kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6960309 | Aşağı Qışlaq kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6960513 | Ayrınc kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6960613 | Badamlı kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6960618 | Badamlı kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6960810 | Biçənək kənd tam orta məktəbi | Kimya | 1 | 12 | ** |
| 6961011 | Gömür kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961010 | Gömür kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6961111 | Güney Qışlaq kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961113 | Güney Qışlaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6961110 | Güney Qışlaq kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6961310 | Kolanı kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6961410 | Kükü kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6961613 | Mahmudoba kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6961722 | Nursu kənd tam orta məktəbi | Alman dili | 1 | 12 | |
| 6961711 | Nursu kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961807 | Qızıl Qışlaq kənd tam orta məktəbi | Azərbaycan dili | 1 | 18 | |
| 6961811 | Qızıl Qışlaq kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6961813 | Qızıl Qışlaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6962011 | Şada kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6962013 | Şada kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6962009 | Şada kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6962010 | Şada kənd tam orta məktəbi | Kimya | 1 | 12 | |
| 6962018 | Şada kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6962019 | Şada kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6962213 | Türkeş kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6962313 | Yuxarı Qışlaq kənd tam orta məktəbi | Coğrafiya | 1 | 12 | |
| 6962318 | Yuxarı Qışlaq kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6962320 | Yuxarı Qışlaq kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| Cəmi: | | 33 yer | | | |
| Sədərək rayonu üzrə: | | | | | |
| 6980107 | Heydərabad qəsəbə tam orta məktəbi | Azərbaycan dili | 1 | 14 | |
| 6981514 | Dəmirçi kənd tam orta məktəbi | Fiziki tərbiyə | 1 | 12 | |
| 6981518 | Dəmirçi kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 12 | |
| 6981519 | Dəmirçi kənd tam orta məktəbi | İnformatika | 1 | 12 | |
| 6981521 | Dəmirçi kənd tam orta məktəbi | Rus dili | 1 | 12 | |
| 6980211 | Qaraağac kənd tam orta məktəbi | Biologiya | 1 | 12 | |
| 6980209 | Qaraağac kənd tam orta məktəbi | Fizika | 1 | 12 | |
| 6980218 | Qaraağac kənd tam orta məktəbi | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| 6980220 | Qaraağac kənd tam orta məktəbi | İngilis dili | 1 | 12 | |
| 6980322 | Sədərək kənd 1 №-li tam orta məktəb | Alman dili | 1 | 14 | |
| 6980318 | Sədərək kənd 1 №-li tam orta məktəb | İbtidai sinif müəllimliyi | 3 | 42 | |
| 6980320 | Sədərək kənd 1 №-li tam orta məktəb | İngilis dili | 1 | 18 | |
| 6980308 | Sədərək kənd 1 №-li tam orta məktəb | Riyaziyyat | 1 | 15 | |
| 6980413 | Sədərək kənd 2 №-li tam orta məktəb | Coğrafiya | 1 | 12 | |
| 6980409 | Sədərək kənd 2 №-li tam orta məktəb | Fizika | 1 | 12 | |
| 6980418 | Sədərək kənd 2 №-li tam orta məktəb | İbtidai sinif müəllimliyi | 1 | 14 | |
| Cəmi: | | 18 yer | | | |
| YEKUN: | | 209 yer | | | |

(*) Naxçıvan şəhər 3 №-li tam orta məktəbdə işə qəbul olunmaq üçün yalnız rus dilini mükəmməl bilən şəxslər müraciət edə bilərlər.

(**) Bu müəssisələr Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2017-ci il 25 dekabr tarixli 150 nömrəli Qərarına əsasən stimullaşdırıcı tədbirlər müəyyən edilən təhsil müəssisələridir.

## *“Qadın – gözəllik və tarixin sədası”* adlı fərdi yubiley sərgisi keçirilib





*Dünən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Həbibə Allahverdiyevanın “Qadın – gözəllik və tarixin sədası” adlı fərdi yubiley sərgisi keçirilib.*

Tədbirdə Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirib ki, bu il Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileyi təntənə ilə qeyd olunur. Yubiley çərçivəsində keçirilən növbəti tədbirlərdən biri – açılışına toplaşdığımız fərdi yubiley sərgisi özünəməxsusluğu və rəngarəngliyi ilə seçilir. Sərgi salonunda nümayiş olunan, fırçanın gücü ilə təsvir edilmiş müxtəlif qadın obrazlarının hər birinin dərin mənası vardır və ilk baxışdan insanı özünə cəlb edir.

Qeyd olunub ki, rəssamlığın müxtəlif janrlarında çalışan sərgi müəllifinin mənzərə, portret, natürmort janrlarında işlədiyi rəsmlər, eləcə də dekorativ- tətbiqi sənət əsərləri onun peşəkarlığından, rəssam gücündən xəbər verir. Həbibə xanımın bir sıra fərdi sərgiləri keçirilib. O təkcə muxtar respublikamızda yox, xarici ölkələrdə keçirilən sərgilərdə iştirak edərək Naxçıvanımızı uğurla təmsil edib. Həbibə Allahverdiyeva 2010-cu ildə Azərbaycan Rəssamlar İttifaqının üzvü olub, 2014-cü ildə “Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı” fəxri adına layiq görülüb.

Ülviyyə Həmzəyeva çıxışının sonunda Həbibə Allahverdiyevanı 40 illik yubileyi və yeni sərgisinin açılışı münasibətilə təbrik edib, rəssama yaradıcılıq uğurları arzulayıb.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək vurğulayıb ki, muxtar respublikada hər bir sahəyə olduğu kimi, rəssamlığa da diqqət və qayğı göstərilir. Muxtar respublika rəssamlarının mütəmadi olaraq fərdi sərgiləri keçirilir. Həbibə Allahverdiyeva da öz qabiliyyəti, məharəti ilə seçilən rəssamlarımızdandır. Yeni sərgisində bu, daha aydın görünür. İnsan xarakterini açmaq, təhlil etmək, onun üz cizgilərini olduğu kimi vermək, tarixləşmiş şəxsiyyətlərin rəsmlərini yaratmaq böyük məharət tələb edir. Həbibə xanımın yaradıcılığı çoxşaxəlidir və işlədiyi hər bir rəsm əsərini diqqətlə izləyirik. O təkcə rəssam deyil, həm də müəllimdir. İncəsənət, mədəniyyət, rəssamlıq sahəsini, vətənpərvərliyi, milli dəyərləri öz tələbələrinə də aşılayır. Həbibə Allahverdiyeva həm də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatıdır, ictimai fəaliyyətlə də məşğul olur. Deməli, o həm rəssam, həm müəllim, həm də ictimai xadimdir və hər bir sahədə özünü doğrulda bilib. İsmayıl Hacıyev rəssamı bölmənin kollektivi adından təbrik edərək ona fəaliyyətində uğurlar arzulayıb.

Daha sonra Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov, Xalq rəssamı Hüseynqulu Əliyev, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Aytən Məmmədova, Naxçıvan Dövlət Universitetinin baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Sevda Xəlilova, rəssamın atası Rəşad Allahverdiyev çıxış edərək rəssamın yaradıcılıq keyfiyyətlərindən ağızdolusu danışıb, onu fərdi yubiley sərgisi münasibətilə təbrik edib, bundan sonrakı yaradıcılıq fəaliyyətində uğurlar arzulayıblar.

Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həbibə Allahverdiyeva yaradıcılığına göstərilən diqqət və qayğıya, fəaliyyətinə verilən dəyərə görə minnətdarlıq edib.

Sonda tədbir iştirakçıları sərgi ilə tanış olublar. Qeyd edək ki, sərgidə qrafika və yağlı boya ilə çəkilmiş 40 qadın obrazı və qadın kompozisiyası nümayiş olunub.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

***Ümumtəhsil məktəblərinin məzunları arasında peşə təhsilinə marağın artırılması məqsədilə Naxçıvan Şəhər Peşə Liseyində “Açıq qapı” günləri təşkil edilib.***

## “Açıq qapı” günləri təşkil olunub



Tədbirin keçirilməsində məqsəd məzunları peşə məktəbləri, bu məktəblərdə fəaliyyət göstərən ixtisaslar və yaradılan şəraitlə tanış etmək, peşə təhsilinə maraq oyatmaq, eləcə də onların gələcəkdə peşə seçimlərinə istiqamət verməkdən ibarət olub.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi Aparatının Orta ixtisas təhsili müəssisələri və peşə məktəbləri ilə iş üzrə şöbəsinin müdiri Vüsal Abdullayev və Naxçıvan Şəhər Peşə Liseyinin direktoru Sona Əliyeva çıxış edərək müasir dövrdə peşə təhsilinin əhəmiyyəti ilə bağlı məktəblilərə məlumat veriblər.

Vurğulanıb ki, nazirliyin tabeliyində olan 1 peşə liseyi və 3 texniki peşə və sürücülük məktəblərinin hər biri üçün yeni məktəb kompleksi tikilib, burada ən müasir elektron lövhə və kompüterlər, maşın və mexanizm qurğuları, hər cür avadanlıqlarla təmin olunmuş zəngin emalatxanalar fəaliyyət göstərir. Bu məktəblərdə təhsil alan müdavimlər gündə üç dəfə isti yemək və yataqxana ilə təmin olunur, eyni zamanda onlara aylıq təqaüd verilir. Kursu müvəffəqiyyətlə başa vuran müdavimlər isə müvafiq sertifikatla təmin olunurlar.

Tədbirdə şagirdlər Peşə Liseyində elektron lövhəli siniflər, kompüter otağı, yataqxana, kitabxana və müxtəlif emalatxanalarda yaradılmış şəraitlə tanış olub, kurslarda nəzəri və praktik dərslərin tədrisi prosesində iştirak ediblər.

“Açıq qapı” günlərinin ay ərzində Şərur və Ordubad rayonlarında fəaliyyət göstərən peşə məktəblərində də keçirilməsi nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Komanda-qərargah təlimi başlayıb



“Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı”na əsasən iyunun 7-də növbəti komanda-qərargah təlimi başlayıb.

Komanda-qərargah təliminə cəlb olunan birləşmə və hissələr düşmənin güclü radioelektron vasitələrinin təsiri altında aidiyyəti üzrə müxtəlif dərəcəli döyüşə hazırolma səviyyəsinə gətirilərək ehtiyat təyinat rayonlarına çıxarılıb və idarəetmə orqanlarının arazidə açılması təmin edilib.

Qoşunların gizli və operativ fəaliyyətini təmin etmək üçün mexanikləşdirilmiş, piyada və xüsusi təyinatlı bölmələrin digər qoşun növü bölmələri ilə qarşılıqlı fəaliyyətinə xüsusi diqqət yetirilib.

Təlim iyunun 12-dək davam edəcək.

**Kənan CƏLİLOV**

### *İtmişdir*

Şərur rayon Zeyvə kənd sakini Cavadova Sədaqət Şəmsi qızının adına olan JN-1779[A] inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Qarxun kənd sakini Xəlilov Elşən Saleh oğlunun adına olan JN-431[A] inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Abbasov Mənsur Bayram oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Mənsimov Oktay İsmayıl oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Ordubad rayonunun Anaqut kənd sakini Muradov Rövşən Ağasəf oğlunun adına olan JN-333[B] nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 468